# Azərbaycan Mədəniyyət Mərkəzi Türkiyənin Ulusal telekanalı ilə birgə televiziya verilişlərinə start verib

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə xarici ölkələrdəki Azərbaycan Mədəniyyət mərkəzləri "Tanınmış azərbaycanlıların izi ilə" layihəsinə start verib.**

Bu məqsədlə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi milli mədəniyyətimizi qardaş ölkədə geniş təbliğ edən, dostluq münasibətlərimizin, habelə Türkiyədə mədəniyyət sahəsinin tərəqqisi sahəsində xidmətləri olan incəsənət xadimlərimiz haqqında televiziya verilişləri layihəsi həyata keçirir.

Azərbaycan Mədəniyyət Mərkəzinin Türkiyənin Ulusal telekanalı ilə birgə layihəsi olan "Tanınmış azərbaycanlıların izi ilə" layihəsinə




əsasən, "Dostluq karvanı" adlı televiziya proqramı nümayiş etdirilib. Proqramın ilk qonağı tanınmış azərbaycanlı pianoçu Əhəd Əsgərov olub.

Proqramda Əhəd Əsgərovun sənət həyatına başladığı ilk illərdən, onun yaradıcılığı, Azərbaycan Milli Konservatoriyasında fəaliyyəti, 1981-ci ildə Azərbaycandan Türkiyəyə dəvət olunan ilk incəsənət xadimlərindən biri kimi qardaş ölkədə yaradıcılığı, 1981-1989-cu illərdə Ankara Dövlət Opera və Balet Teatrında, 1992-2019-cu illərdə isə Mersin Dövlət Opera və Balet Teatrında fəaliyyəti barədə danışılıb. Həmçinin sənətkarın müxtəlif proqramlar, konsertlərdə milli musiqimizi ifa etməsi, çoxsaylı konsert proqramlarının təşkili, yaradıcılığında Azərbaycan bəstəkarlarının əsərlərinə geniş yer verməsi, Mersin Dövlət Opera və Baletinin, habelə uşaq xorunun yaradılması sahəsində xidmətləri haqqında geniş məlumatlar verilib.

Qeyd edək ki, "Tanınmış azərbaycanlıların izi ilə" layihəsinə əsasən, "Dostluq karvanı" adlı televiziya proqramı davam edəcək və proqramda digər tanınmış azərbaycanlı incəsənət xadimləri, onların yaradıcılığı işıqlandırılacaqdır.

Azərbaycan.- 2025.- 29 aprel (№ 85).- S.15.